**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ ÜMUMİ YIĞINCAĞI**

# QƏRAR

№ 2/8

Bakı şəhəri 30 iyun 2014-cü il

AMEA-nın Neft və Qaz İnstitutunun
yaradılması haqqında

Azərbaycan Respublikasının ərazisində yerin böyük dərinliklərində (30 km-ə qədər) olan karbohidrogen yanacaq ehtiyatlarının aşkarlanması, dəniz dibində yerləşən yanar şist və qaz-hidrat yataqlarının mənimsənilməsi, neftin təkcə biogen deyil, həm də abiogen olması nəzərə alınmaqla çoxdan dayandırılmış quyulardan yenidən neft çıxarılmasına nail olunması ilə bağlı problemlərin həlli hərtərəfli fundamental elmi tədqiqatların aparılmasını, elmtutumlu yüksək texnologiyaların işlənib tətbiq olunmasını tələb edir.

Beləliklə neft və qaz sənayesi və elminin yeni innovasiyalı iqtisadi mühitdə cəmiyyətin inkişafının müasir çağırışlarına uyğun prioritet istiqamətlər üzrə ən yeni geoloji-geofiziki, informasiya, kosmik və digər texnologiyaların kompleks tətbiqi əsasında təşkil olunması və həyata keçirilməsi məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı **QƏRARA ALIR:**

1. AMEA-nın Yer Elmləri Bölməsinin tərkibində Neft və Qaz İnstitutu yaradılsın.
2. AMEA Rəyasət Heyətinə tapşırılsın ki, Neft və Qaz İnstitutunun yaradılmasından irəli gələn təşkilati, hüquqi və texniki məsələləri həll etsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — AMEA-nın müxbir üzvü Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT